**050101 – "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasının qısa təsviri**

Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasında təhsil almağın üstün cəhəti ondan ibarətdir ki, bu ixtisasa yiyələnməklə həm Azərbaycan dilinin və ədəbiyyatın dərin biliklərinə yiyələnir, həm də nitq bacarığını formalaşdırmış olursan. Bu ixtisas ədəbiyyata, poeziyaya marağı olan abutiruyentlər üçün ən ideal seçim ola bilər. Belə ki, universitetdə poeziya gecələri, qiraət müzakirələri, tamaşalar, tədbirlər təşkil olunur ki, bu da tələbələrin ədəbiyyatla bağlı biliklərinin artmasına, nitq və səhnə mədəniyyətinin inkişafına geniş imkanlar yaradır.

Bütövlükdə, təhsil proqramını mənimsəyən məzunlar ixtisas biliklərindən əlavə, həm də aşağıdakı bir sıra ümummədəni və peşə kompetensiyalarına (səriştələr) yiyələnirlər:

- Azərbaycan dili və ədəbiyyatı üzrə qazanılmış bilik, bacarıq və vərdişlərə uyğun olaraq problemlərin həllində iştirak etməyə hazır olmaq bacarığına;
- Ana dilinin və bu dildə yaradılan bədii əsərlərin məzmununu mənimsətməklə dövlətçilik ideologiyasını, milli-mənəvi dəyərləri, estetik gözəlliyi qorumaq bacarığına;
- Təlim prosesini ümumi təhsilin Azərbaycan dili və ədəbiyyat fənləri üzrə dövlət standartlarının tələblərinə uyğun olaraq təşkil etmək bacarığına;
- Təlim prosesində şagirdlərin sosiallaşdırılması, peşəyönümü proseslərini, şüurlu peşə-ixtisas seçiminə hazırlaşdırılması məqsədilə dil-ədəbiyyat fənlərinin imkanlarının reallaşdırılması bacarığına;
- Şagirdlərin əməkdaşlığının, fəallıq və təşəbbüskarlığının, müstəqilliyinin, yaradıcı fəaliyyətinin təşkili, universal təlim fəaliyyətinin növlərinin aşılanması bacarığına və s..

Bu ixtisas üzrə bakalavr dərəcəsini almaqla orta ümumtəhsil məktəblərində, müxtəlif tədris mərkəzlərində və hazırlıq kurslarında, liseylərdə, orta ixtisas təhsili müəssisələrində (kolleclər), magistr dərəcəsini almaqla isə həm də, universitetlərdə Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi işləmək imkanı qazanılır. Bu ixtisasa yiyələnənlər eyni zamanda jurnalistika fəaliyyəti ilə məşğul ola, habelə KİV sahəsində özbacarıqlarını nümayiş etdirə bilirlər.

İxtisas üzrə təhsil proqramının normativ mənimsəmə müddəti 4 ildir.

MDU-da bu ixtisas üzrə magistr dərəcəsi də almaq mümkündür.